**Sərbəst Auditor**
**Aydın Həsən oğlu Hüseynov**

**Independent Auditor**
**Aydin son of Hasan Huseynov**

AZ1152, Bakı şəhəri, F.Yusifov küçəsi ev 75A, mənzil 59, Mob.tel:(+99450) 5010046

VOEN
1504653762

AZ1152, Baku city, Faig Yusifov street, home 75a, flat 59, Mob.tel:(+99450) 5010046

**"İmprotex Trucks and Buses" Məhdud**

**Məsuliyyətli Cəmiyyətinin rəhbərliyinə**

# MÜSTƏQİL AUDİTORUN HESABATI

## Rəy

Mən, Azərbaycan Respublikasının Auditorlar Palatası tərəfindən verilmiş 15.07.2024-cü il tarixli, SA/437 qeydiyyat nömrəli "İCAZƏ"-yə əsasən fəaliyyət göstərən Sərbəst auditor Aydın Həsən oğlu Hüseynov "İmprotex Trucks and Buses" Məhdud Məsuliyyətli Cəmiyyəti ("İmprotex Trucks and Buses" MMC) ilə "Auditor Xidməti Göstərilməsi Barədə" 22.10.2024-cü il tarixli M-32281 nömrəli müqaviləyə əsasən Cəmiyyətin 31 dekabr 2023-cü il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan, məcmu gəlirlər haqqında hesabatdan, kapitalda dəyişikliklər haqqında hesabatından və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışam. Rəy audit.gov.az saytında 10.12.2024-cü il tarixində e9HGELThJO nömrə ilə qeydiyyata alınmışdır.

Hesab edirirəm ki, əlavə edilmiş maliyyə hesabatları "İmprotex Trucks and Buses" MMC-nin 31 dekabr 2023-cü il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixlərdə başa çatan illər üzrə pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

## Rəy üçün əsaslar

Mən auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışam. Bu standartlar üzrə mənim məsuliyyətlərim əlavə olaraq hesabatımın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Mənim maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Peşəkar Mühasiblərin Etika

Məcəlləsinin" (IESBA məcəlləsi) tələblərinə uyğun olaraq "İmprotex Trucks and Buses" MMC-dən asılı deyiləm və mən digər etik öhdəliklərimi IESBA məcəlləsinin tələblərinə uyğun yerinə yetirmişəm. Mən hesab edirəm ki, əldə etdiyim audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik "İmprotex Trucks and Buses" MMC-ni ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik "İmprotex Trucks and Buses" MMC-nin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilmə-sinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər "İmprotex Trucks and Buses" MMC-nin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Mənim məqsədim maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimə daxil olan auditor hesabatını tərtib etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi mən audit aparılan zaman peşəkar mühakimə tətbiq edirəm və peşəkar inamsızlıq nümayiş etdirirəm. Mən həmçinin:

- Maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflər risklərini müəyyən edib qiymətləndirirəm, bu risklərə cavab verən audit prosedurlarını

layihələndirib həyata keçirirəm və rəyimi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirəm. Dələduzluq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamamaq riski səhvlər nəticəsindəkindən daha yüksəkdir, çünki dələduzluq sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər.

- "İmprotex Trucks and Buses" MMC-nin daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərtilə, bu şəraitlərdə uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürəm.
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqliliyini qiymətləndirirəm.
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə ediməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında "İmprotex Trucks and Buses" MMC-nin fəaliy-yətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığında dair nəticə çıxarıram. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığım halda, auditor hesabatımda maliyyə hesabatlarındakı əlaqəli əlumatların açıqlanmasına diqqət yetirməliyəm və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimə dəyişiklik etməliyəm. Nəticələrim auditor hesabatımın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və ya şəraitlər "İmprotex Trucks and Buses" MMC-nin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər.
- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli təqdim edilib-edilmədiyini qiymətləndirirəm.

Mən "İmprotex Trucks and Buses" MMC-nin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığım zaman daxili nəzarətdə aşkar etdiyim əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririrəm.

Mən həmçinin "İmprotex Trucks and Buses" MMC-nin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə bəyanat verirəm ki, müstəqilliyə və müstəqilliyimə təsir etməsi əsaslandırılmış şəkildə güman edilən bütün əlaqələr və digər məsələlərə, habelə müvafiq

olduğunda əlaqəli qorunma tədbirləri haqqında məlumat verməyimə dair müvafiq etik normalarına riayət etmişəm.

"İmprotex Trucks and Buses" MMC-nin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin nəzərinə çatdırılmış məsələlərdən mən cari dövr üzrə maliyyə hesabatlarının ən əhəmiyyətli və bu səbəbdən əsas audit məsələləri olanları müəyyən edirəm. Bu məsələnin ictimaiyyətə açıqlanmasına qanun və ya qaydalarla yol verilmədiyi halda və ya, çox nadir hallarda, məsələ haqqında hesabatda məlumat vermənin mənfi təsirlərinin onun ictimaiyyət üçün faydalarından çox olacağı əsaslandırılmş şəkildə güman edildiyinə görə mən bu məsələ haqqında hesabatımda məlumatın verilməməsini qərara almadığım halda, mən bu məsələləri auditor hesabatında təsvir edirəm.

Hesabat 10 dekabr 2024-cü il tarixdə eyni qüvvəyə malik iki nüsxədə tərtib edilmişdir. Bunlardan biri "İmprotex Trucks and Buses" MMC-nin rəhbərliyinə təqdim edilir, ikincisi isə sərbəst audiorda saxlanılır.

Sərbəst auditor Aydın Həsən oğlu Hüseynov ____________________

Bakı şəhəri, Azərbaycan Respublikası imza

10 dekabr 2024-cü il

| 6. Əsas vəsaitlər | Binalar | Maşın və avadanlıq | Nəqliyyat vasitələri | Digər əsas vəsaitlər | Başa çatdırılmamış tikinti | Cəmi |
|---|---|---|---|---|---|---|
| 01.01.2022-ci il tarixinə ilkin dəyər | 16 776 601,65 | 189 433,76 | 1 148 891,74 | 54 227,08 | 0,00 | 18 169 154,23 |
| Yığılmış amortizasiya | 2 266 518,87 | 68 196,15 | 502 640,13 | 19 521,74 | 0,00 | 2 856 876,89 |
| **01.01.2022-ci il tarixinə balans dəyəri** | 14 510 082,78 | 121 237,61 | 646 251,61 | 34 705,34 | 0,00 | 15 312 277,34 |
| Daxilolmalar | 0,00 | 31 540,84 | 66 205,55 | 0,00 | 0,00 | 97 746,39 |
| Xaricolmalar | 0,00 | 0,00 | 0,00 | 0,00 | 0,00 | 0,00 |
| Amortizasiya ayırmaları | 1 015 705,81 | 30 555,69 | 178 114,29 | 6 941,07 | 0,00 | 1 231 316,86 |
| Xaricolmalar üzrə yığılmış amortizasiya | 0,00 | 0,00 | 0,00 | 0,00 | 0,00 | 0,00 |
| **31.12.2022-ci il tarixinə balans dəyəri** | **13 494 376,97** | **122 222,76** | **534 342,87** | **27 764,27** | **0,00** | **14 178 706,87** |
| 31.12.2022-ci il tarixinə ilkin dəyər | 16 776 601,65 | 220 974,60 | 1 215 097,29 | 54 227,08 | 0,00 | 18 266 900,62 |
| Yığılmış amortizasiya | 3 282 224,68 | 98 751,84 | 680 754,42 | 26 462,81 | 0,00 | 4 088 193,75 |
| **31.12.2022-ci il tarixinə balans dəyəri** | **13 494 376,97** | **122 222,76** | **534 342,87** | **27 764,27** | **0,00** | **14 178 706,87** |
| **01.01.2023-cü il tarixinə ilkin dəyər** | **16 776 601,65** | **220 974,60** | **1 215 097,29** | **54 227,08** | **0,00** | **18 266 900,62** |
| Yığılmış amortizasiya | 3 282 224,68 | 98 751,84 | 680 754,42 | 26 462,81 | 0,00 | 4 088 193,75 |
| **01.01.2023-cü il tarixinə balans dəyəri** | **13 494 376,97** | **122 222,76** | **534 342,87** | **27 764,27** | **0,00** | **14 178 706,87** |
| Daxilolmalar | 0,00 | 532 844,15 | 617 559,16 | 184 205,85 | 0,00 | **1 334 609,16** |
| Xaricolmalar | 0,00 | 0,00 | 0,00 | 0,00 | 0,00 | **0,00** |
| Amortizasiya ayırmaları | 865 681,80 | 105 269,67 | 287 975,51 | 38 323,67 | | **1 297 250,65** |
| Xaricolmalar üzrə yığılmış amortizasiya | 0,00 | 0,00 | 0,00 | 0,00 | | **0,00** |
| **31.12.2023-cü il tarixinə balans dəyəri** | **12 628 695,17** | **549 797,24** | **863 926,52** | **173 646,45** | **0,00** | **14 216 065,38** |
| 31.12.2023-cü il tarixinə ilkin dəyər | 16 776 601,65 | 753 818,75 | 1 832 656,45 | 238 432,93 | 0,00 | 19 601 509,78 |
| Yığılmış amortizasiya | 4 147 906,48 | 204 021,51 | 968 729,93 | 64 786,48 | 0,00 | 5 385 444,40 |
| **31.12.2023-cü il tarixinə balans dəyəri** | **12 628 695,17** | **549 797,24** | **863 926,52** | **173 646,45** | **0,00** | **14 216 065,38** |

| 7. Qeyri-maddi aktivlər | Proqram təminatı və | Lisenziyalar |
|---|---|---|
| **01 yanvar 2022-ci il tarixinə ilkin dəyəri** | **6 219,72** | **0,00** |
| Yığılmış amortizasiya | 1 181,74 | 0,00 |
| **01 yanvar 2022-ci il tarixinə qalıq dəyəri** | **5 037,98** | **0,00** |
| Daxilolmalar | 0,00 | 0,00 |
| Xaric olmalar | 0,00 | 0,00 |
| Amortizasiya ayırmaları | 503,80 | 0,00 |
| **31 dekabr 2022-ci il tarixinə ilkin dəyəri** | **6 219,72** | **0,00** |
| Yığılmış amortizasiya | 1 685,54 | 0,00 |
| **31 dekabr 2022-ci il tarixinə qalıq dəyəri** | **4 534,18** | **0,00** |
| **01 yanvar 2023-cü il tarixinə ilkin dəyəri** | **6 219,72** | **0,00** |
| Yığılmış amortizasiya | 1 685,54 | 0,00 |
| **01 yanvar 2023-cü il tarixinə qalıq dəyəri** | **4 534,18** | **0,00** |
| Daxilolmalar | 895,00 | 0,00 |

| 7. Qeyri-maddi aktivlər | Proqram təminatı və digər qeyri aktivlər | Lisenziyalar |
|---|---|---|
| Xaric olmalar | 0,00 | 0,00 |
| Amortizasiya ayırmaları | 542,92 | 0,00 |
| **31 dekabr 2023-cü il tarixinə ilkin dəyəri** | **7 114,72** | **0,00** |
| Yığılmış amortizasiya | 2 228,46 | 0,00 |
| **31 dekabr 2022-ci il tarixinə qalıq dəyəri** | **4 886,26** | **0,00** |

| 8. Ehtiyatlar | 2023 | 2022 |
|---|---|---|
| Hazır məhsul | 0,00 | 0,00 |
| Mallar | 6 137 792,26 | 4 032 672,53 |
| Bitməmiş istehsaə | 0,00 | 0,00 |
| Sair ehtiyatlar | 0,00 | 0,00 |
| **Cəmi** | **6 137 792,26** | **4 032 672,53** |

| 9. Debitor borcları | 2023 | 2022 |
|---|---|---|
| Alıcılar və sifarişçilərin qısamüddətli debitor borcları | 5 041 565,33 | 9 455 355,91 |
| Digər qısamüddətli debitor borcları | 0,00 | 0,00 |
| **Cəmi:** | **5 041 565,33** | **9 455 355,91** |

| 10. Pul vəsaitləri və onların ekvivalentləri | 2023 | 2022 |
|---|---|---|
| Kassada olan nağd pul vəsaitləri | 0,00 | 0,00 |
| ƏDV depozit hesabında pul vəsaiti | 0,00 | 0,00 |
| Bank hesablarında pul vəsaitləri | 199 898,85 | 767 552,61 |
| · Milli valyutada bank hesabları | 199 898,85 | 767 552,61 |
| · Xarici valyutalarda bank hesabları | 0,00 | 0,00 |
| **Cəmi** | **199 898,85** | **767 552,61** |

| 11.Qısamüddətli maliyyə aktivləri | 2023 | 2022 |
|---|---|---|
| Sair qısamüddətli maliyyə aktivləri | 0,00 | 0,00 |
| **Cəmi** | **0,00** | **0,00** |

| 12.Qısamüddətli aktivlər | 2023 | 2022 |
|---|---|---|
| Gələcək dövrünxərcləri | 12 711,87 | |
| Sair qısamüddətli aktivlər | 197 014,71 | 1 092 130,95 |
| **Cəmi** | **209 726,58** | **1 092 130,95** |

| 13.Uzunüddətli faiz xərcləri yaradan öhdəliklər | 2023 | 2022 |
|---|---|---|
| Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | 4 650 702,33 | 3 702 419,66 |
| **Cəmi** | **4 650 702,33** | **3 702 419,66** |

| 14. Vergi və digər məcburi ödənişlər üzrə öhdəliklər | 2023 | 2022 |
|---|---|---|
| Vergilər və məcburi ödənişlər üzrə öhdəlikləri | 177 199,08 | 48 006,38 |
| **Cəmi:** | **177 199,08** | **48 006,38** |

| 15.Qısamüddətli kreditor borcları | 2023 | 2022 |
|---|---|---|
| Alinmiş avanslar | 2 929 171,51 | 4 384 873,42 |
| Malgöndərən və pod-ılara qısamüddətli kreditor borcları | 3 249 832,25 | 2 681 660,31 |
| Əməyin ödənişi üzrə işçi heyətinə olan borclar | 0,00 | 0,00 |
| **Cəmi** | **6 179 003,76** | **7 066 533,73** |

| 16.Qısamüddətli öhdəliklər | 2023 | 2022 |
|---|---|---|
| Gələcək dövrün gəlirləri | 0,00 | 0,00 |
| Sair qısamüddətli öhdəliklər | 11 354 937,12 | 15 265 900,91 |
| **Cəmi** | **11 354 937,12** | **15 265 900,91** |

| **17. Satış** | **2023** | **2022** |
|---|---|---|
| Əsas fəaliyyət üzrə gəlirlər | 9 542 475,68 | 12 121 834,28 |
| | | |
| **18. Satışın maya dəyərinin elementləri** | **2023** | **2022** |
| Əmək haqqı xərcləri | 1 167 124,22 | 1 262 309,97 |
| Sosial sığorta üzrə ayırmalar | 221 211,14 | 238 481,01 |
| Malın dəyəri | 4 975 782,79 | 8 421 352,90 |
| Amortizasiya xərcləri | 1 297 793,57 | 1 231 820,66 |
| Təmir xərcləri | 0,00 | 306 769,66 |
| Icarə xərcləri | 0,00 | 200 672,24 |
| Ezamiyyə xərcləri | 63 156,37 | 24 154,10 |
| Enerji xərcləri | 49 769,00 | 50 079,91 |
| Qaz xərcləri | 9 658,49 | 10 846,36 |
| Yanacaq xərcləri | 146 217,40 | 269 856,43 |
| Su və kanalizasiya xərcləri | 4 505,94 | 2 892,37 |
| Rabitə xərcləri | 32 179,86 | 32 754,87 |
| Mühafizə xərcləri | 406,80 | 406,80 |
| Borca görə faizlər və onunla bağlı olan xərcləri | 178 110,37 | 344 551,70 |
| Bank xidmətləri üzrə xərcləri | 52 553,30 | 248 528,90 |
| Reklam xərcləri | 32 010,54 | 25 705,22 |
| Sair xərclər | 112 043,26 | 127 046,64 |
| Nəqliyyat xərcləri | 0,00 | 0,00 |
| Sığorta xərcləri | 51 329,19 | 47 980,90 |
| Digər xərclər | 0,00 | 0,00 |
| Gəlirdən cıxılan vergilər və yığımlar | 144 262,25 | 0,00 |
| **CƏMİ XƏRCLƏR** | **8 538 114,49** | **12 846 210,64** |
| | | |
| **19. Ümumi Mənfəət (Zərər)** | **2023** | **2022** |
| Ümumi Mənfəət (Zərər) | 1 004 361,19 | -724 376,36 |
| Əvəlki illər üzrə zərərin məbləği | 0,00 | 0,00 |
| | | |
| **20. Mənfəət vergisi** | **2023** | **2022** |
| Mənfəət vergisi xərci aşağıdakı komp-dən ibarətdir: | | |
| Cari mənfəət vergisi xərci | 0,00 | 0,00 |
| Təxirə salınmış vergi xərci | | |
| Hesabat dövründə xalis mənfəət (zərər) | 1 004 361,19 | -724 376,36 |

MHBS və Azərbaycan Respublikasının vergi qanunvericiliyi arasındakı fərqlər nəticəsində maliyyə hesabatlarının hazırlanması və mənfəət vergisinin hesablanması çərçivəsində aktiv və passivlərin balans dəyəri arasında müvəqqəti zaman fərqləri əmələ gəlir. Bu müvəqqəti zaman fərqləri üzrə dövriyyələrin vergi təsiri cari ilin sonuna mövcud olmuş mənfəət vergisi dərəcəsində 20% (2023-cü ildə-20%) qeydə alınır. Hazırkı maliyyə hesabatlarında təxirə salınmış vergi aktivləri və ya öhdəlikləri hesablanmamış və nəzərə alınmamışdır.

Müəssisə hesabat ilin zərərlə başa vurmuşdur.

**21. Əlaqəli tərəflərlə əməliyyatlar-**Hazırkı maliyyə hesabatlarının hazırlanması məqsədləri üçün tərəflər o zaman əlaqəli hesab olunur ki, tərəflərdən biri digərinə nəzarət edə bilsin, onunla eyni qrupun nəzarəti altında olsun və ya maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı məsələlər üzrə qərar qəbul edərkən ona təsir göstərə bilsin. Əlaqəli tərəflər arasındakı münasibətləri nəzərə alarkən həmin münasibətlərin hüquqi formasına deyil, iqtisadi məzmununa diqqət yetirilir.

**22. Risklərin idarə edilməsi-**Müəssisə daxilində risklərin idarə edilməsi funksiyası maliyyə riskləri (kredit riski, bazar riski, coğrafi risklər, valyuta riski, likvidlik riski və faiz dərəcəsi riskləri), əməliyyat və hüquqi risklər ilə əlaqədar həyata keçirir. Maliyyə risklərinin idarə edilməsi funksiyasının əsas məqsədi risk limitlərinin müəyyən edilməsi və bu limitlərə riayət edilməsidir. Əməliyyat və hüquqi risklərin idarə edilməsində məqsəd, bu risklərin azaldılması üçün nəzərdə tutulan daxili qayda və prosedurlara müvafiq qaydada riayət edilməsini təmin etməkdən ibarətdir.

**Kredit riski-**Müəssisənin kredit riski konsentrasiyası üçün potensial müzakirə mövzusu olan maliyyə aktivləri pul və debitor borclarından ibarətdir. Müəssisənin pul depozitləri mötəbər maliyyə idarələrində yerləşdirilmişdir.

**Bazar riski-**Müəssisə bazardakı ümumi və spesifik dəyişikliklərə məruz qalan faiz, valyuta və pay alətləri üzrə açıq mövqelər ilə əlaqədar bazar risklərinə məruz qalır. Bazarda daha əhəmiyyətli dəyişikliklərin baş verdiyi halda müəyyən edilmiş limitdən artıq zərərlərin yaranmasının qarşısı alınır. Qəbul edilmiş normalar ilə uzunmüddətli borcların bazar dəyəri onların daşınan dəyərlərilə dəyişə bilər.

**Faiz dərəcəsi riski-**Müəssisənin bir çox borcları təyin olunmuş marağı ifadə edir. Bu borclarla əlaqəli maraq xərcləri sığortalanmamışdır. Rəhbərlik inanır ki, maraq normalarının daimi olmamasından irəli gələn bazar qiymətlərinə dəyişikliklər əhəmiyyətli xarakter daşımır.

**23. Hesabat tarixindən sonra baş vermiş hadisələr**

Hesabat tarixindən sonra maliyyə hesabatlarına əhəmiyyətli təsir edə biləcək hadisələr baş vermişdir. Belə ki, cəmiyyət hesabat tarixindən sonra 2022-ci il tərtib olunmuş balansında və 2022-ci il üzrə vergi orqanəna təqdim olunmuş mənfəət vergisinin bəyannaməsində aşağıda göstərilən dəqəqləşmələri aparılmışdır;

| **12.Qısamüddətli aktivlər** | **2022-ci il hesabat tarixinə** | **2022-ci il üzrə dəqiqləşmə** | **2022-ci il üzrə fərq** |
|---|---|---|---|
| Sair qısa müddətli aktivlər | 233 663,22 | 1 092 130,95 | 858 467,73 |
| **Cəmi** | **233 663,22** | **1 092 130,95** | **858 467,73** |
| | | | |
| **15.Qısamüddətli kreditor borcları** | **2022-ci il hesabat tarixinə** | **2022-ci il üzrə dəqiqləşmə** | **2022-ci il üzrə fərq** |
| Alinmiş avanslar | 3 526 405,69 | 4 384 873,42 | 858 467,73 |
| **Cəmi** | **3 526 405,69** | **4 384 873,42** | **858 467,73** |

Rəhbərlik adından:

Mühəmməd Fərid Azər oğlu Abdullayev
"İmprotex Trucks and Buses" MMC-nin direktoru
05 dekabr 2024-cü il
Bakı şəhəri, Azərbaycan Respublikası

Zülfiyyə Ramiz qızı Mehdiyeva
"İmprotex Trucks and Buses" MMC-nin Baş mühasibi
05 dekabr 2024-cü il
Bakı şəhəri, Azərbaycan Respublikası

Maliyyə vəziyyəti haqqında HESABAT
31 dekabr 2023-cü il tarixinə

| | |
|---|---|
| VÖEN | 1400726411 |
| Mühasibat uçotu subyektinin adı | "İmprotex Trucks and Buses" MMC |
| Sahə (fəaliyyət növü) | Avtomobillərin və minik avtomobil vasitələrinin pərakəndə satışı |
| Mülkiyyət növü | Xüsusi mülkiyyət |
| Ünvan | AZ1111, Bakı şəhəri, Nəsimi rayonu, 20 yanvar, ev 33 |
| Elektron poçt ünvanı | zulfiyya.mehdiyeva@az.man-mn.com |

Ölçü vahidi: manat

| Bölmə/Maddə №-si | Bölmə/Maddələrin adı | Uçot siyasəti və izahlı qeydlərin №-si | Hesabat dövrü üzrə | | Əvvəlki dövr üzrə | |
|---|---|---|---|---|---|---|
| | | | 2023 | | 2022 | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| | **AKTİVLƏR** | | | | | |
| **1** | **Uzunmüddətli aktivlər** | | | | | |
| 10 | Qeyri-maddi aktivlər | | 4 534,18 | 4 886,26 | 5 037,98 | 4 534,18 |
| 11 | Torpaq, tikili və avadanlıqlar | 6 | 14 178 706,87 | 14 216 065,38 | 15 312 277,34 | 14 178 706,87 |
| 12 | İnvestisiya mülkiyyəti | | | | | |
| 13 | Bioloji aktivlər | | | | | |
| 14 | Təbii sərvətlər | | | | | |
| 15 | İştirak payı metodu ilə uçota alınmış investisiyalar | | | | | |
| 16 | Təxirə salınmış vergi aktivləri | | | | | |
| 17 | Uzunmüddətli debitor borcları | | | | | |
| 18 | Sair uzunmüddətli maliyyə aktivləri | | | | | |
| 19 | Sair uzunmüddətli aktivlər | | | | | |
| | **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | **14 183 241,05** | **14 220 951,64** | **15 317 315,32** | **14 183 241,05** |
| **2** | **Qısamüddətli aktivlər** | | | | | |
| 20 | Ehtiyatlar | | 4 032 672,53 | 6 137 792,26 | 3 185 557,03 | 4 032 672,53 |
| 21 | Qısamüddətli debitor borcları | 7 | 9 455 355,91 | 5 041 565,33 | 8 703 034,18 | 9 455 355,91 |
| 22 | Pul vəsaitləri və onların ekvivalentləri | 8 | 767 552,61 | 199 898,85 | 349 565,10 | 767 552,61 |
| 23 | Sair qısamüddətli maliyyə aktivləri | 9 | | 12 711,87 | | |
| 24 | Sair qısamüddətli aktivlər | 10 | 1 092 130,95 | 199 014,71 | 246 741,75 | 1 092 130,95 |
| | **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | | **15 347 712,00** | **11 590 983,02** | **12 484 898,06** | **15 347 712,00** |
| | **CƏMİ AKTİVLƏR** | | **29 530 953,05** | **25 811 934,66** | **27 802 213,38** | **29 530 953,05** |
| | **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | | | |
| **3** | **Kapital** | | | | | |
| 30 | Ödənilmiş nominal(nizamnamə) kapital | | 220,00 | 220,00 | 220,00 | 220,00 |
| 31 | Emissiya gəliri | | | | | |
| 32 | Geri alınmış kapital (səhmlər) | | | | | |
| 33 | Kapital ehtiyatları | | | | | |
| 34 | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | | 3 447 872,37 | 3 447 872,37 | 3 447 872,37 | 3 447 872,37 |
| | **CƏMİ KAPİTAL** | | **3 448 092,37** | **3 448 092,37** | **3 448 092,37** | **3 448 092,37** |
| **4** | **Uzunmüddətli öhdəliklər** | | | | | |
| 40 | Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | 11 | 0,00 | 0,00 | 0,00 | 0,00 |
| 41 | Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər | | | | | |
| 42 | Təxirə salınmış vergi öhdəlikləri | | | | | |
| 43 | Uzunmüddətli kreditor borcları | | 3 702 419,66 | 4 650 702,33 | 3 574 286,88 | 3 702 419,66 |
| 44 | Sair uzunmüddətli öhdəliklər | | | | | |
| | **CƏMİ UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | **3 702 419,66** | **4 650 702,33** | **3 574 286,88** | **3 702 419,66** |
| **5** | **Qısamüddətli öhdəliklər** | | | | | |
| 50 | Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | | | | | |
| 51 | Qısamüddətli qiymətləndirilmiş öhdəliklər | | | | | |
| 52 | Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 12 | 48 006,38 | 177 199,08 | 46 421,34 | 48 006,38 |
| 53 | Qısamüddətli kreditor borcları | 13 | 7 066 533,73 | 6 179 003,76 | 5 430 809,58 | 7 066 533,73 |
| 54 | Sair qısamüddətli öhdəliklər | 14 | 15 265 900,91 | 11 354 937,12 | 15 302 603,21 | 15 265 900,91 |
| | **CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | **22 380 441,02** | **17 711 139,96** | **20 779 834,13** | **22 380 441,02** |
| | **CƏMİ ÖHDƏLİKLƏR** | | **26 082 860,68** | **22 361 842,29** | **24 354 121,01** | **26 082 860,68** |
| | **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **29 530 953,05** | **25 809 934,66** | **27 802 213,38** | **29 530 953,05** |

Rəhbərlik adından:

Məhəmməd Fərid Azər oğlu Abdullayev
"İmprotex Trucks and Buses" MMC-nin direktoru
05 dekabr 2024-cü il
Bakı şəhəri, Azərbaycan Respublikası

Zülfiyyə Ramiz qızı Mehdiyeva
"İmprotex Trucks and Buses" MMC-nin Baş mühasibi
05 dekabr 2024-cü il
Bakı şəhəri, Azərbaycan Respublikası